**UOT 379.85**

***Turan Arzu oğlu HƏSƏNLİ***
***Doktorant, Azərbaycan Kooperasiya Universiteti***
***E-mail: hasanli.turan1@gmail.com***
***ORCİD-0009-0009-2118-5765***
***https://doi.org/10.30546/4.71.73001.2026.005.077***

# MÜASİR TURİZM FƏALİYYƏTİNDƏ RİSKLƏRİN XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN İDARƏ EDİLMƏSİNƏ YANAŞMALAR

***Xülasə***

**Tədqiqatın məqsədi**: Müasir şərtlərdə fəaliyyət sahələrində risk təhlükəsi və təhdidlərinin artması və idarəetmənin mürəkkəbliyi turizm fəaliyyəti subyektlərinin və dövlət turizm idarəetmə quruluşlarının ənənəvi idarəetmə mexanizmlərindən daha çevik, texnoloji və önləyici yanaşmalara keçməsini zəruri edir. Bu məqalənin məqsədi müasir dövrdə turizm fəaliyyətində risklərin spesifik xüsusiyyətlərini araşdırmaq və onların idarə edilməsinə yeni metodoloji yanaşmaları təhlil etmək, yeni idarəetmə konsepsiyasını və onun reallaşdırılması mexanizmini təklif etməkdir.

**Tədqiqatın metodologiyası:** Tədqiqat materiallarını turizmin müasir inkişaf meyillərinə, risklərin xüsusiyyətlərinə, idarə edilməsi yanaşmalarına**,** idarəetmə mexanizmlərinin formalaşdırılmasına aid tədqiqat əsərləri, beynəlxalq və milli turizm təşkilatlarının risklərə dair hesabatları, internet verilənləri və digər mənbələr təşkil edir.

Tədqiqat zamanı təhlil, müqayisə, ümumiləşdirmə, sintez və deduksiya metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Məqalədə müasir inkişaf mərhələsində turizm fəaliyyətində rast gəlinən risklərin xüsusiyyətləri və onların səmərəli idarə edilməsinə yanaşma konsepsiyaları nəzərdən keçirilir, Qeyd edilir ki, cari dövrdə baş verən risklər əvvəlkilərlə müqayisədə fərqli xüsusiyyətləri ilə seçilirlər. Bu xüsusiyyətlər geniş təhlil edilərək qruplaşdırılır və xarakterik əlamətləri şərh edilir. Tədqiqatın nəticələri təcrübi əhəmiyyətlidir və turizmdə müasir risk idarəetmə konsepsiyalarının və mexanizmlərinin işlənməsində, turizm idarəetmə orqanları və turizm müəssisələrinin risk idarəetməsində, bu istiqamətdə aparılacaq tədqiqatlarda, risk idarəçiliyi fənləri və mövzularının tədrisi prosesində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri:** Bütün sahələrdə olduğu kimi, turizm fəaliyyətində də idarəetmənin müxtəlif aspektlərinə, o cümlədən risk idarəetmə mexanizmlərinə yeni yanaşmaların işlənməsi aktuallaşmışdır. Yeni şərtlər turizm fəaliyyətində risklərin idarə edilməsinə yeni xüsusiyyətlərə müvafiq konsepsiyaların tərtibini şərtləndirir. Turizm risklərinin idarəçiliyinə yeni yanaşma konsepsiyasında risk və insan amili əsaslı idarəetmə prinsiplərinin prioritetləşdirilməsinin əhəmiyyəti vurğulanır. Bildirilir ki, belə yanaşma, riskin başvermə halının, hadisənin qiymətləndirilmə və proqnozlaşdırma, önləyici tədbirləri tərtib etmə məsələlərində çevikliyə, risk hallarında mənfi təsirlərin həddinin aşağı salınmasına, turizmin davamlı inkişafına, gəlirlərin artmasına, regionda və ölkədə digər vacib sosial-iqtisadi göstəricilərin yüksəldilməsinə imkan verər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi**: Turizmdə yeni çağırışlara və risklərin dəyişən xüsusiyyətlərinə dair aparılan bu tədqiqat orijinallığı ilə seçilir. Tədqiqat nəticəsində müasir qloballaşma şərtlərində turizm sənayesində sürətlə dəyişən və yenilənmə tələb edən şərtlərə uyğunlaşmaq, turizmin inkişafında davamlılığa nail olmaq məqsədilə mümkün təhlükəli və riskli hadisələrin qarşısını almaq, üst səviyyədə önləyici işlərin görülməsinə zəmin yaratmaq məqsədilə risklərin idarə edilməsinin yeni konsepsiyası və bu konsepsiyanın həyata keçirilməsi mexanizmi təklif edilir. Konsepsiyanın mahiyyətini risk əsaslı idarəetmə və insan amilinin ön plana çəkilməsi, mexanizmini isə turizm idarəetmə quruluşlarının sistemli yanaşması təşkil edir.

***Açar sözlər: turizm, turizmdə risklər, risklərin xüsusiyyətləri, risklərin idarə edilməsi, risk idarəçiliyi konsepsiyası, risk idarəetməsinə yanaşma.***

***Giriş***

Müşahidələr və araşdırmalar göstərir ki, XXI əsrdə əvvəlki dövrlərə nisbətən fərqli münasibətlər sisteminin formalaşması və sürətli dəyişikliklərin baş verməsi, qloballaşma meylinin güclənməsi fəaliyyət sahələrində yeni reallıqlar yaradır. Bu amillər özünü qlobal siyasətdə, iqtisadiyyatda, rəqəmsal və innovativ texnologiyaların yaradılması, mübadiləsi, tətbiqində, istehsal və xidmət sahələrində yeni keyfiyyətdə yanaşmaların və həllərin aktuallaşmasında, ekoloji mühit şərtlərində baş verən dəyişikliklərin sürətlənməsində, ekoloji tarazlığın pozulmasının yaratdığı qlobal xarakterli problemlərin dərinləşməsində, demoqrafik amillərin dinamikasında, regional xüsusiyyətlərdən asılı olaraq fərqlərin yaranmasında və digər bəşəri əhəmiyyətli proseslərdə göstərir və ciddi təsirlər yaradır.

Bu təsirlər müsbət və mənfi nəticələrə, bəzən isə gərginliklərə, müəyyən risk mənbələrinin yaranmasına və risk ehtimalının artmasına, təhlükəli və riskli hadisələrin baş verməsinə də səbəb olur. Qeyd edilən amillərin, proseslərin nəticəsində yaranan reallıqlar əksər məsələlərdə, proseslərdə olduğu kimi kütləviliyi və dinamikliyi ilə seçilən fəaliyyət növlərindən olan turizmdə risklərin miqyasını, başvermə intensivliyini və xarakterini köklü şəkildə dəyişməkdədir.

Təcrübə və araşdırmalar göstərir ki, qeyri-müəyyənlik, qarşılıqlı asılılıq, rəqəmsallaşma, yeni texnoloji mərhələyə keçid, qlobal güc mərkəzlərinin rəqabəti nəticəsində geosiyasi gərginliyin artması, digər təbii və antropogen amillər risklərin yaranma sürətini, təsir gücünü artırır. Müxtəlif mənşəli risklər həm bilavasitə turizmin inkişafına, həm də milli təhlükəsizliyə, biznes idarəetməsinə, sosial rifah və davamlı inkişaf üçün ciddi təhdidlər yaradır. Ona görə də turizmdə risklərin idarə edilməsi strateji əhəmiyyəti kəsb edir və ön plana çıxır.

Artıq dördüncü onillikdir ki, turizm sənayesi dünya iqtisadi sisteminin davamlı iqtisadi artım göstəricilərinə malik olan, kütləvi xarakteri ilə seçilən və dinamik inkişaf edən sahələrdən biri kimi tanınır. Eyni zamanda, turizm müxtəlif təsirlərə, risklərə qarşı həssas fəaliyyət növlərindən biridir. Belə ki, 2019-cu ilin sonlarından başlayan Covid-19 pandemiyası dövründə beynəlxalq turizm səyahətlərində müxtəlif turizm regionları üzrə 82%-dək azalma baş vermişdir ki, bu da turizmin risklərə qarşı həssaslığının göstəricisidir [9].

***Risklərin mahiyyəti***

Bildiyimiz kimi, risklər istənilən iqtisadi fəaliyyət növlərində rast gəlinən və müəyyən təhdid, qeyri-sabitlik yaradan hadisə kimi səciyyələndirilir [4]. Risk istənilən fəaliyyət sahəsində sahibkarlıq subyektlərinin bütün fəaliyyəti müddətində başvermə ehtimalı olan, fəaliyyəti davamlı olaraq müşayiət edən hadisələrdən biridir. Heç bir müəssisə heç bir halda risklərdən sığortalanmır və onun başvermə ehtimalı davamlı olaraq gündəlikdə durur. Müasir iqtisadi fəaliyyət növlərində və sahələrində müxtəlif risklərin baş verməsi məlumdur və bu risk hadisələri gözlənilməzlik, çətin proqnozlaşdırılan, ciddi itkilərə və ziyana səbəb olan xüsusiyyətləri ilə seçilir və ona görə də qarşısının alınması, mənfi təsirlərinin nəticələrinin azaldılması məqsədilə çevik yanaşma önləyici tədbirlərin planlaşdırılmasını və diqqətdə saxlanmasını tələb edir.

Risk dedikdə həyatda, iş prosesində, səyahətdə ehtimal edilən təhdid və təhlükələr, sağlamlığa və əmlaka ziyan vuran hallar nəzərdə tutulur [6]. Risklər fərqli xüsusiyyətli, bir-biri ilə ziddiyyət təşkil edən hadisələr, hallar sistemi, mürəkkəb təzahür formasıdır. Risklərin müxtəlif halların, hadisələrin, fərqli, ziddiyyətli hadisələrin məcmusu kimi səciyyələndirilməsi onu deməyə əsas verir ki, onların hər biri başvermə vəziyyətinə və mənsubiyyətinə görə öz tətbiq sahələrinə müxtəlif dərəcələrdə uyğun gəlir. Ona görə də risk anlayışının müasir elmdə universal təfsiri, konkret tərifi hələ ki, formalaşmamış qalır və bu hadisənin problemləri ilə bağlı çoxtərəfli müzakirələr davam edir. [1]. Risklərin maliyyə, strateji, əməliyyat, texnoloji, innovativ, uyğunluq, təbii amillərlə bağlı, sosial, ekoloji, daxili və xarici və s. növləri fərqləndirilir [2; 3; 5].

Risklərin ağır sosial, iqtisadi nəticələr yaratma potensialı ilə tanınması onların davamlı təhlilinin, monitorinqinin aparılmasını, başvermə ehtimalının proqnozlaşdırılmasını, qarşısının alınması üzrə tədbirlərin görülməsini və optimal idarəetmə mexanizmlərinin yaradılmasını tələb edir [10, s. 5]. Buna görə də, turizm fəaliyyətində riskə əsaslanan idarəetmə mexanizminin formalaşdırılması

və təcrübi fəaliyyətdə səmərəli tətbiqinə nail olunması regional, milli, regionlararası və qlobal turizm bazarlarında səmərəli fəaliyyət göstərməyi, müxtəlif turizm xidmətləri və məhsullarının istehsalı və satışı üzrə üstün mövqe tutmağı məqsəd hesab edən istənilən turizm müəssisəsinin strateji və əməliyyat fəaliyyətinin idarəetməsində əsas elementlərdən biri olmalıdır.

***Müasir turizmdə risklərin xüsusiyyətləri və onları şərtləndirən amillər***

Nəzərə almaq lazımdır ki, riskə əsaslanan idarəetmə mexanizminin formalaşdırılması və onun təcrübi fəaliyyətdə tətbiqi bir sıra amillərin nəzərə alınmasını tələb edir [7, s. 23]. Bu amillər arasında risklərin spesifik xüsusiyyətləri, müasir iqtisadi münasibətlər sisteminin prinsipləri, fəaliyyət sahələri subyektlərinin fəaliyyət istiqamətləri, turizm bazarının xüsusiyyətləri və s.-lə yanaşı, yeni şərtlərdə və mühitdə başvermə ehtimalı olan risklərin yeni reallıqlarla şərtlənən və büruzə verən xüsusiyyətlərin də nəzərə alınması vacib hesab edilir.

Müasir, qloballaşmaya meyilli dünyada əksər fəaliyyət sahələrində, o cümlədən turizmdə risklərin əsas xüsusiyyətlərini şərtləndirən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- risklərin qlobal miqyaslı xüsusiyyət qazanması;
- bir sahədə başverən risklərin digər sahələrdə risk ehtimalını artırması;
- risklərin qeyri-müəyyənliyinin dərinləşməsi və baş verməsinin zəncirvariliyi;
- risk hadisələrinin çoxalmasının iqlim dəyişiklikləri və ekoloji problemlərlə bağlılığı;
- müəyyən fəaliyyət sahələrində, o cümlədən turizmdə risklərin baş verməsinin daha çox insan amilindən asılı hala gəlməsi;
- risklərin başvermə ehtimalının artmasının süni zəka, rəqəmsal və innovativ texnologiyaların turizm fəaliyyətində geniş tətbiqi ilə bağlılığı;
- risk hadisələrinin başvermə hallarının daha dinamik xarakter alması;
- risklərin çoxistiqamətli təsirinin artması və eyni zamanda müxtəlif fəaliyyət sahələrini əhatə etməsi;
- sosial və humanitar risklərin coğrafiyasının genişlənməsi;
- risklərin artmasının qlobal güclərin geosiyasi və geostrateji maraqlarının təmini uğrunda mübarizələrdən qaynaqlanması;
- risklərin etnik, dini zəmində baş verən lokal ziddiyyət, münaqişə, qarşıdurma və müharibələrin təsirindən artması və s.


Bu xüsusiyyətləri sxem şəklində aşağıdakı kimi təsvir etmək olar (sxem 1.).

Son illər müxtəlif tədqiqatlarda “sistemli risk” anlayışından istifadə edilir [8]. Bu anlayış müəyyən fəaliyyət sahəsində, müəssisədə, ölkədə və ya regionda baş verən risklərin “domino effekti” yaratması və digər analoji subyektlərə təsir etməsini ifadə edir. Turizm sənayesi sahələrinin digər sahələrlə inteqrasiyasının davamlı güclənməsi risklərin təsirlərini sistemli artırır və onun “domino effekti”ni gücləndirir. Hər hansı turoperatorun fəaliyyətində risk nəticəsində yaranan fasilə, bir neçə turagentin, turvasitəçinin, ekskursiya bürosunun, xidmət komponentləri istehsal edən digər təsərrüfat və sahibkarlıq subyektlərinin fəaliyyətində də problemlər yaradır.

Risklərin baş verməsi əksər sahələrdə və istiqamətlərdə artan qeyri-müəyyənlik səviyyəsindən qaynaqlanır. Müxtəlif amillərin iqtisadiyyatın quruluşunu necə formalaşdıracağını, hansı təsirlər yaradacağını, ehtimal edilən təbii hadisələrin və fəlakətlərin vaxtını, miqyasını və törədəcəyi halları proqnozlaşdırmaq və modelləşdirmək problemli məsələlərdən biridir.

Təcrübə göstərir ki, təbii-iqlim və ekoloji amillərlə bağlı risklərin baş verməsi həmişə ən çox rast gəlinən təhlükəli hallar olmuşdur. Xüsusilə, ekoloji amillərin yaratdığı risklər son illər əsas qlobal problemlərdən birinə çevrilib. Müxtəlif amillər iqlim-ekoloji mənşəli risklərin artımının əsas səbəbləridir. Yaxın perspektivdə qlobal təhlükə yaradan risklər daha çox ekoloji mənşəli risklər olacaq.

Risklərin baş verməsində insan amilinin təsirini nəzərdən qaçırmaq olmaz. Turizm fəaliyyətində insan amili ilə bağlı risklərə çox rast gəlinməsi turizm məhsulları və xidmətlərinin yüksək əməktutumlu olması ilə bağlıdır. Xidmətlərin göstərilməsi prosesi işçi personalın fəal əmək fəaliyyətini şərtləndirir və bir çox hallarda funksional əməliyyatların icrasında buraxılan səhvlər riskli vəziyyətlər yaradır.




**Sxem 1. Turizmdə risklərin əsas xüsusiyyətləri**

*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.*

Bundan başqa, innovativ və rəqəmsal texnologiyaların, süni zəkanın tətbiqi ilə bağlı risklərin artması müşahidə edilir. Araşdırmalar göstərir ki, transsərhəd haker şəbəkələri, kiberhücumlar və məlumat sızmaları, idarəetmədə süni zəkanın tətbiqindən yaranan səhvlər, sosial şəbəkə platformalarında manipulyasiyalar, informasiya bazalarının kiberhücumlara dayanıqsızlığı, maliyyə-bank sisteminin kiberzəiflikləri və s. ciddi maliyyə riskləri mənbəyinə çevrilməkdədirlər.

Müasir turizmdə risklər üçün xarakterik əlamətlərdən biri də yüksək sürətlilik və dinamiklikdir, yəni risklərin baş verməsi halları intensivləşmişdir və turizm fəaliyyətində baş verən risklər əvvəlki ənənəvi dövrlərlə müqayisədə daha sürətlə baş verir, artır və genişlənir, elektron turizm ticarətində bir neçə saniyədə alqoritm pozuntuları baş verməklə prosesdə problem yaranır.

Müasir turizm sənayesi sahələrində baş verən risklər komplekslik və çoxistiqamətlilik xüsusiyyəti ilə bir neçə sahəni eyni anda əhatə edir. Eyni zamanda həmin sahələrlə yanaşı ərazinin, destinasiyanın əsas sosial, iqtisadi, texnoloji, ekoloji, ictimai-siyasi və turizm fəaliyyəti ilə bağlı digər fəaliyyət sahələrinə də müəyyən təsirlər göstərir.

Turizm fəaliyyətində sosial və humanitar risklər də son vaxtlar tez-tez baş verir. Rəqəmsal və innovasiya texnologiyalarının tətbiqinin genişlənməsi, əmək bazarlarının robotlaşdırılması və

avtomatlaşdırılması turizmdə işsizlik həddini artırır ki, bu da ciddi sosial risklər yaradır. Qida çatışmazlığı və təminatı problemləri, miqrasiya, iqtisadi və həyat keyfiyyəti bərabərsizliyi, sağlamlıq və təhsil problemləri, sanitar-gigiyenik şərait və s. humanitar risklərə səbəb olur.

Turizmdə risklərin yaranması və artmasının xüsusiyyətlərinə qlobal güclərin geosiyasi və geostrateji maraqlarının təmini uğrunda mübarizənin kəskinləşməsi də aid edilir. Təbii ki, istənilən ərazinin geostrateji üstünlüklərinə sahib olmaq və öz maraqları üçün istifadə etmək uğrunda dövlətlərin, siyasi-iqtisadi birliklərin açıq-gizli mübarizəsi müəyyən risklər yaradır.

Turizmdə risklərin xüsusiyyətləri həm də müxtəlif regionlarda və ölkələrdə etnik və dini zəmində lokal xarakterli ziddiyyətlərin, münaqişə və müharibələrin təsirindən artım göstərməsi ilə bağlıdır. Yaxın Şərqdə, Cənub-Qərbi Asiyada, Afrikada baş verən qarşıdurmalar, Rusiyanın Ukraynaya qarşı təcavüzü həmin ölkələrdə və qonşu ərazilərdə turizm fəaliyyəti və turistlər üçün ciddi risk mənbələridir.

***Risklərin idarə edilməsinə yanaşmalar***

Göründüyü kimi, risklər müasir mühit şərtlərindən asılı olaraq müəyyən xüsusiyyətlərlə səciyyələnirlər. Bu xüsusiyyətlər və şərtlər risklərin idarə edilməsinə yeni yanaşma üsullarının formalaşdırılmasını, alət və vasitələrinin seçilməsini tələb edir.

Müasir turizmdə risklərin xüsusiyyətlərinin kifayət qədər mürəkkəbliyi göstərir ki, real şərtlərdə ənənəvi risk idarəetmə modellərinin istifadəsi artıq bu sahədə lazımi səmərəliliyə nail olunması üçün qənaətbəxş deyil və arzuolunan nəticələrin əldə edilməsinə kifayət etmir. Hesab edirik ki, turizm fəaliyyətində risklərin idarəetməsinə metodoloji yanaşmanın əsasını aşağıdakı prinsiplər prioritetləşdirməlidir:

- daha effektiv nəticələrə imkan verən önləyici (proaktiv) yanaşmaya üstünlük verilməsi;
- idarəetmə metodlarının seçilməsində sistemli, çevik, əhatəli və çoxsahəli xüsusiyyətlərin nəzərə alınması;
- idarəetmədə risklərə mənbəyə yönələn əsaslı yanaşmaya ənənəvi münasibətin müasir prinsiplərə uyğun təkmilləşdirilməsi;
- risklərin idarəçiliyində önləyici təsir yaratma əsaslı yanaşmanın tətbiqinə nail olunması.

Bu yanaşmaların üstünləşdirilməsi, nəzərə alınması, təkmilləşdirilməsi və tətbiqlərinə nail olunması risklərin idarəetmə sisteminin əsasən önləyici elementlərini əhatə edir. Turizmdə inkişafın dayanıqlılığının və dinamikliyinin təmini əlavə amillərin də nəzərə alınmasını zəruriləşdirir. Bu amillər idarəetmə metodologiyası və risklərin spesifik əlamətlərini əks etdirir və aşağıdakılardır:

- risk yaradan daxili və ya xarici amillər;
- riskin başvermə şərtlərinin və yaratdığı nəticələrin qeyri-müəyyənliyi;
- eyni və ya oxşar risklərin baş verməsinin dövriliyi;
- riskin başvermə ehtimalının kəmiyyət və ya keyfiyyət qiymətləndirilməsi;
- risk ehtimalının qısa və ya uzunmüddətli şok yaratma səviyyəsi;
- risk baş verdikdə imic, maliyyə, insan sağlamlığı, əməliyyat zərərlərinin həddi;
- bir riskin digər risklərə təsiri və ya qarşılıqlı asılılığı;
- turizm müəssisəsinin riskin qarşısının alınması və ya azaldılması imkanı;
- turizm müəssisəsi tərəfindən riskin və ya onun əlamətlərinin vaxtında aşkarlanması və xarakterinin müəyyən edilməsi ehtimalı;
- müəssisənin risk hadisəsindən sonra normal fəaliyyəti təminetmə imkanı;
- müəssisənin riskin vurduğu ziyanı ödəmə qabiliyyəti;
- müəssisənin ehtimal edilən risk hadisələrinə hazırlıq imkanı;
- risk ehtimalına qarşı önləyici tədbirlərin planlaşdırılmasının keyfiyyətcə yenilənməsi və təkmilləşdirilməsi səviyyəsi;
- müəssisənin idarəetmə strategiyasında risklərin xüsusiyyətlərinin nəzərə alınması;
- risk idarəetmə metodlarının davamlı yenilənməsi və təkmilləşdirilməsi;
-insan davranışı ilə bağlı risklərin idarəçiliyi konsepsiyasının aktuallaşdırılması və s.

***Nəticə***

Müqayisələr və araşdırmalar göstərir ki, müasir turizmdə risklər daha qlobal, gözlənilməz, sürətli, domino effektli, qarşılıqlı asılı, geniş əhatəli, şaxəli və zəncirvari təsirli, ciddi və ağır nəticələr yaradan, önləyici tədbirlərin planlaşdırılması və reallaşdırılması çətin olan, insan amilinin rolunun artması kimi kompleks xarakterik xüsusiyyətlərə malikdir. Qeyd edilən xüsusiyyətlərin risklərin idarə edilməsi prosesində nəzərə alınması, risk ehtimalının düzgün qiymətləndirilməsi və proqnozlaşdırılması, önləyici tədbirlərin planının tərtibi və reallaşdırılması mexanizminin işlənməsi zamanı diqqətə alınması zəruri prinsipial əhəmiyyət kəsb edir və vacib şərtlərdən biri kimi ön plana çəkilir. Turizm fəaliyyətində risklərin idarə edilməsinə bu prinsip əsasında yanaşma risk hadisələrinin mənfi təsirlərinin aşağı salınması ilə yanaşı, turizmin davamlı inkişafının və iqtisadiyyatda multiplikativ səmərəsinin artırılmasına, həm də milli təhlükəsizliyə, əhalinin rifah səviyyəsinin yüksəldilməsinə və digər sosial-iqtisadi göstəricilərin yaxşılaşdırılmasına əlavə töhfə verər.

Beləliklə, turizmdə yeni şərait təhlükə və təhdidlərdən, risklərdən qoruyan mühit formalaşdırmaq, risk idarəetməsinin yenidən konseptuallaşdırılmasını, qabaqcıl analitik texnologiyaların tətbiqini və sistemli, çevik və uyğunlaşdırılmış qərarvermə mexanizmlərinin yaradılmasını tələb edir.

## ƏDƏBİYYAT


1. Ермасова, Н.Б., Ермасов, С.В. Финансовый менеджмент: учебное пособие – 2-е изд., перераб. и доп.– М.: Издательство Юрайт; ИД Юрайт, 2010. – 621с., с. 133.
2. Затолокин, И.А. Виды рисков. Азимут научных исследований: экономика и управление. 2013. № 3, с. 7-11.
3. Киселева, И.А. и др. Инновационне риски на туристском рынке. Вестник ВГУИТ/Известия ВГУЭТ, Т. 79, № 4, 2017.
4. Курилова, А.А. Риск-ориентированный финансовый механизм управления затратами и теория активных систем // Вектор науки Тольяттинского государственного университета. Серия: Экономика и управление. -2013.- № 1 (12). С. 85-88.
5. Новикова, И.Н. Виды рисков в туристическом бизнесе / И.Н. Новикова. Текст : электронный // NovaInfo, 2017. — № 58 — С. 157-161 — URL: https://novainfo.ru/article/10348 (дата обращения: 15.12.2024).
6. Johnivan, J.R. Common Types of Risk in Project Management. Project Management. Published: Jan 31, 2024. https://project-management.com/types-of-risk-in-project-management.
7. Hopkin, P. *Fundamentals of Risk Management*. Understanding, evaluating and implementing effective risk management. CPI Group, 2018, 489 p. s. 24.
8. Park, S., & Tussyadiah, I. P. Multidimensional facets of perceived risk in mobile travel booking. Journal of Travel Research, 2016. 0047287516675062.
9. UNWTO. Tourism Risk Management Guidelines*:* 2021–2023. Madrid, 2023, 54 p.
10. World Economic Forum (WEF). *Global Risks Report* (2020–2024). 106 p.,



***Туран Арзу оглы Гасанли***
***Докторант, Азербайджанского Университета Кооперации***
***E-mail: hasanli.turan1@gmail.com***
***ORCİD-0009-0009-2118-5765***


**Особенности рисков в современной туристской деятельности и подходы к их управлению**

***Резюме***


**Цель исследования**: Повышение опасности и угроз риска в сферах деятельности в современных условиях и усложнение управления обусловливают необходимость перехода субъектов туристской деятельности и государственных структур управления туризмом от

традиционных механизмов управления к более гибким, технологическим и превентивным подходам. Целью данной статьи является изучение специфики рисков в туристской деятельности в современную эпоху и анализ новых методологических подходов к их управлению, предложение новой концепции управления и механизма ее реализации.

**Методология исследования**: исследовательские материалы состоит из исследовательских работ, посвященных современным тенденциям трансформациям рисков в туризме, особенностям современных рисков, подходам к управлению, формированию механизмов управления рисками, отчетов международных и национальных туристских организаций о рисках, интернет-данных и других источников.

В ходе исследования использовались методы анализа, сравнения, обобщения, синтеза и дедукции.

**Прикладная значимость исследования**: В статье рассматриваются особенности рисков, встречающихся в туристской деятельности на современном этапе развития, и концепции подходов к их эффективному управлению, отмечается, что риски, возникающие в текущем периоде, отличаются по сравнению с предыдущими особенностями. Эти характеристики группируются путем обширного анализа и интерпретации их характерных признаков. Результаты исследования имеют экспериментальное значение и могут быть использованы при разработке современных концепций и механизмов управления рисками в туризме, в управлении рисками органов управления туризмом и туристских предприятий, в исследованиях, которые будут проводиться в этом направлении, в процессе преподавания дисциплин и тем управления рисками.

**Результаты исследования**: Как и во всех сферах, в туристской деятельности актуализировалась разработка новых подходов к различным аспектам управления, в том числе к механизмам управления рисками. Новые условия обуславливают разработку соответствующих новым особенностям концепций управления рисками в туристской деятельности. В концепции нового подхода к управлению рисками туризма подчеркивается важность приоритизации принципов управления на основе риска и человеческого фактора. Отмечается, что такой подход позволит обеспечить гибкость в вопросах оценки и прогнозирования возникновения риска, событий, составления превентивных мер, снизить порог негативных воздействий в случаях риска, обеспечить устойчивое развитие туризма, рост его доходов, повышение других важных социально-экономических показателей в регионе и стране.

**Оригинальность и научная новизна исследования**: Это исследование, посвященное новым вызовам и изменяющимся характеристикам рисков в туризме, отличается оригинальностью. В результате исследования предлагается новая концепция управления рисками и механизм реализации этой концепции с целью адаптации к быстро меняющимся и требующим обновления условиям в туристской индустрии в условиях современной глобализации, предотвращения возможных опасных и рискованных событий с целью достижения устойчивости в развитии туризма, создания условий для проведения превентивных работ на высшем уровне. Суть концепции-управление, основанное рискам и выдвижении на первый план человеческого фактора, а механизм-в системном подходе структур управления туризмом к процессу.

**Ключевые слова:** туризм, риски в туризме, особенности рисков, управление рисками, концепция управления рисками, подход к управлению рисками.

***Turan Arzu Hasanli***
***Doctoral student, Azerbaijan University of Cooperation***
***E-mail: hasanli.turan1@gmail.com***
***ORCID-0009-0009-2118-5765***

**Features of risks in modern tourism activities and approaches to their management**

***Resume***

**The purpose of the study**: Increasing the danger and threats of risk in the fields of activity in modern conditions and increasing the complexity of management necessitate the transition of subjects of tourism activities and government structures of tourism management from traditional management mechanisms to more flexible, technological and preventive approaches. The purpose of this article is to study the specifics of risks in tourism activities in the modern era and analyze new methodological approaches to their management, propose a new management concept and a mechanism for its implementation.

**Research methodology**: research materials consists of research papers on current trends in risk transformations in tourism, the specifics of modern risks, management approaches, the formation of risk management mechanisms, reports of international and national tourism organizations on risks, Internet data and other sources.

The research used methods of analysis, comparison, generalization, synthesis and deduction.

**Applied significance of the research**: The article examines the features of the risks encountered in tourism activities at the current stage of development, and the concepts of approaches to their effective management, noting that the risks arising in the current period differ from previous features. These characteristics are grouped by extensive analysis and interpretation of their characteristic features. The results of the study are of experimental importance and can be used in the development of modern concepts and mechanisms of risk management in tourism, in the risk management of tourism authorities and tourism enterprises, in research to be conducted in this area, in the teaching of disciplines and topics of risk management.

**Research results:** As in all fields, the development of new approaches to various aspects of management, including risk management mechanisms, has been updated in tourism activities. The new conditions lead to the development of risk management concepts in tourism activities that correspond to new features. The concept of a new approach to tourism risk management emphasizes the importance of prioritizing risk-based and human-factor management principles. It is noted that this approach will allow for flexibility in assessing and predicting risk, events, and preventive measures, reduce the threshold of negative impacts in cases of risk, ensure sustainable tourism development, income growth, and other important socio-economic indicators in the region and the country.

**Originality and scientific novelty of the research**: This study, which focuses on new challenges and changing risk characteristics in tourism, is notable for its originality. As a result of the research, a new concept of risk management and a mechanism for implementing this concept are proposed in order to adapt to rapidly changing and requiring updating conditions in the tourism industry in the context of modern globalization, to prevent possible dangerous and risky events in order to achieve sustainability in tourism development, and to create conditions for preventive work at the highest level. The essence of the concept is risk-based management and highlighting the human factor, and the mechanism is in the systematic approach of tourism management structures to the process.

***Keywords: tourism, risks in tourism, risk features, risk management, risk management concept, risk management approach.***